**Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən göstərilən xidmətlərlə bağlı sorğuların keçirilməsi və sorğu formasının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 2016-cı il 17 oktyabr tarixli 1/1-06 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi Qaydaları”na əsasən Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən vətəndaşlara göstərilən xidmətlərlə bağlı vətəndaş məmnunluğunun artırılması və xidmət keyfiyyətinin ölçülməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Kollegiyasının 2016-cı il 17 oktyabr tarixli 1/1-06 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi Qaydaları”nın 1 nömrəli Əlavəsinin (“ASAN xidmət indeksi” üzrə qiymətləndirmə cədvəli) 7-ci hissəsinə əsasən vətəndaş məmnunluğunun təmin edilməsinin ölçülməsi məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən göstərilən xidmətlərlə bağlı sorğu anketi forması təsdiq edilsin (əlavə olunur).

2. Sorğuların keçirilməsi:

2.1. Onlayn vasitələrlə – İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi;

2.2. Xidmət sahəsində xüsusi blanklar əsasında şəxslər tərəfindən – İqtisadiyyat şöbəsi, Ümumi şöbə;

2.3. Əlilliyi olan şəxslər üçün müyəssər olan formatlarda – Ümumi şöbə və İctimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsi;

2.4. Telefon vasitəsi ilə – Ümumi şöbə;

2.5. "Gizli müştəri" vasitəsi ilə – Daxili nəzarət şöbəsi tərəfindən təmin edilsin.

3. Nazirliyin Aparatı üzrə sorğuların keçirilməsi üçün məsul şəxs Ümumi şöbənin Vətəndaşların qəbulu işinin təşkili sektorunun *müdiri Əzizə Cəfərova* müəyyən edilsin.

4. İcraçı struktur bölmələr xidmət yeri, keçirilən sorğu sayı və dövrü barədə məlumatları hər rübdən sonrakı ayın 5-dək məsul şəxsə, məsul şəxs isə sorğuların keçirilməsinin nəticəsi barədə hesabatı hər rübdən sonrakı ayın 15-dək energetika nazirinə təqdim etsin.

5. İctimaiyyətlə əlaqələr və rəqəmsal idarəetmə şöbəsi bu Əmrin 2-ci hissəsi ilə verilmiş müvafiq tapşırıqlar üzrə texniki və proqram tənzimlənməsinin həyata keçirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsini təmin etsin.

6. Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (Cavid Abdullayev) və Enerji Məsələlərini Tənzimləmə Agentliyi (Samir Axundov):

6.1. Bu Əmrin 1-ci hissəsi ilə təsdiq edilmiş sorğu anketi formasına əsasən 2-ci hissədə nəzərdə tutulmuş sorğuların həyata keçirilməsini təmin etsin;

6.2. Sorğuların keçirilməsi üçün məsul şəxs müəyyən etsin.

7. Ümumi şöbə bu əmrin surətinin Nazirliyin Aparatının aidiyyəti struktur bölmələrinə, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

8. Əmrin icrasına nəzarət nazir müavini Samir Vəliyevə tapşırılsın.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

29 iyul 2022-ci il
№ F-83

**AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRLİYİ**
**ANKET SORĞUSU FORMASI**

Tarix: ____________

1. Müraciətinizin növü hansı idi?

Sorğu ☐ Təklif ☐ Şikayət ☐ Digər ☐

2. Energetika Nazirliyinə ilk müraciətinizdir?

Bəli ☐ Xeyr ☐

3. Hansı xidmətdən istifadə etdiniz?____________________________________

______________________________________________________________

4. Sizə göstərilən xidmətdən razı qaldınızmı?

Bəli ☐ Xeyr ☐ ____________________________
*(Səbəb göstərilməklə)*

5. Sizə göstərilən xidməti neçə balla qiymətləndirərdiniz?

1 bal ☐

2 bal ☐

3 bal ☐

4 bal ☐

5 bal ☐

6. Xidmət səviyyəsinin artırılması ilə bağlı təklifləriniz:__________________________

______________________________________________________________

______________________________________________________________

Əlaqə nömrəsi (məcburi deyildir): ________________________________
*(Zəruri hallarda xidmət səviyyəsinin artırılması məqsədi ilə əlavə edilə bilər)*

***Sorğuda iştirak etdiyiniz üçün təşəkkür edirik!***

*Sorğunun keçirilmə forması: ________________________________
*(xidmət sahəsində, telefon vasitəsi ilə və digər)*

*QEYD*: Bu hissə sorğunu aparan şəxs tərəfindən doldurulur.*